# Arif Buzovnalının 50 illiyinə həsr olunmuş "Arif" adlı kitab işıq üzü görüb




Bir qrup Azərbaycan Yazıçılar Birliyi üzvlərinin təşəbbüsü və tərtibçiliyi ilə görkəmli şair, tədqiqatçı, Xəzər Yazıçılar Birliyinin sədri Arif Buzovnalının 50 illiyinə həsr olunmuş "Arif" adlı kitab işıq üzü görüb.

Kitabda görkəmli elm və incəsənət xadimlərinin Arif Buzovnalı yaradıcılığı və şəxsiyyəti haqqında fikirləri və təbrikləri yer alıb. Həmçinin, kitabda Arif Buzovnalıya həsr olunmuş şeirlər toplanıb.

3 noyabr 2022-ci il saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Arif" kitabının təqdimatı keçiriləcək.

"Ədəbiyyat qəzeti"nin kollektivi adından yubilyarı təbrik edir, ona cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 29 oktyabr.- S. 29.**